

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 169 (21.070)

5 sentyabr 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Sentyabrın 4-də Uelsin Nyuport şəhərində NATO-nun sammiti işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitin açılışında iştirak edib.

NATO-nun Baş katibi Anders Foq Rasmussen və Böyük Britaniyanın Baş naziri Devid Kemeron Prezident İlham Əliyevi və digər dövlət və hökumət başçılarını salamladılar.

Sonra dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev sammitdə çıxış edib.

* * *

Sentyabrın 4-də Uelsdə NATO sammiti çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın görüşü olub.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Azərbaycan ilə Fransa arasında əməkdaşlığın müxtəlif sahələrdə daha yaxşı perspektivlərinin olduğu vurğulandı.

Söhbət zamanı dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında geniş fikir mübadiləsi apardılar.




## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri acarıstanlı uşaqlarla görüşmüşdür





Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasındakı əlaqələr uğurla inkişaf edir. Qarşılıqlı rəsmi səfərlər ikitərəfli münasibətləri yeni inkişaf mərhələsinə yüksəltmişdir. Səhiyyə sahəsində də həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2012 və 2013-cü illərdə tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən acarıstanlı aztəminatlı ailələrin uşaqlarının Duzdağ Fizioterapiya Mərkəzində müalicəsi təşkil edilmişdir. Bu tədbirlərin davamı kimi, avqustun 23-də Acarıstan Muxtar Respublikasından gələn 23 uşaq Duzdağ Fizioterapiya Mərkəzində 10 günlük müalicə kursu keçmişlər.

Sentyabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov acarıstanlı uşaqlarla görüşmüş, onların səhhəti ilə maraqlanmışdır.

Ali Məclisin Sədri ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında gənc nəslin sağlam və vətənpərvər ruhda böyüdülməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, istifadəyə verilən səhiyyə müəssisələri, yaradılan müasir müalicə-istirahət mərkəzləri və mövcud idman infrastrukturu gənclərin hərtərəfli inkişafına xidmət edir. Naxçıvan Muxtar Respublikasının Acarıstan Muxtar Respublikası ilə ikitərəfli əməkdaşlığa mühüm əhəmiyyət verdiyini vurğulayan Ali Məclisin Sədri hər iki muxtar qurum arasında münasibətlərin, xüsusilə səhiyyə sahəsində əlaqələrin bundan sonra da davam etdiriləcəyini bildirmişdir.

Sonra Ali Məclisin Sədri acarıstanlı uşaqlara hədiyyələr təqdim etmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təsis edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Fərmanı

Müasir informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərini nəzərə alaraq, elmi-texniki, sosial-iqtisadi, humanitar biliklərin artırılması, Naxçıvanşünaslığın öyrənilməsi, azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi, dini dəyərlərin təbliği, ekoloji təfəkkürün formalaşdırılması, dövlət siyasətinin, aparılan sosial-iqtisadi, mədəni quruculuq proseslərinin mahiyyətinin ictimaiyyətə çatdırılması məqsədi ilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu yaradılsın.

2. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

3. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının tərkibi” təsdiq edilsin (əlavə olunur).

4. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dövlət qeydiyyatına alınmasını təmin etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 sentyabr 2014-cü il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 4 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun

## NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu (bundan sonra – Fond) Naxçıvan Muxtar Respublikası əhalisinin elmi-texniki, siyasi-ictimai, sosial-iqtisadi, ekoloji və humanitar biliklərinin artırılmasına xidmət edən, qloballaşma şəraitində cərəyan edən prosesləri təhlil etmək bacarığı aşılayan, azərbaycançılıq məfkurəsinin, o cümlədən Naxçıvanşünaslığın mahiyyətini və milli-mənəvi, dini dəyərləri təbliğ edən, dövlət siyasətinin mahiyyətini ictimaiyyətə çatdıran qeyri-kommersiya qurumu olan hüquqi şəxsdir.

1.2. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını və bu Nizamnaməni rəhbər tutur.

1.3. Fond bu Nizamnamədə nəzərdə tutulmuş vəzifə və funksiyalarını yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri, muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları və beynəlxalq qurumlarla qarşılıqlı fəaliyyət göstərir.

1.4. Fondun blankı vardır.

1.5. Fond Naxçıvan şəhərində yerləşir.

1.6. Fond fəaliyyətini illik plan əsasında həyata keçirir. Fondun illik fəaliyyət planı Fondun Himayəçilik Şurası tərəfindən təsdiq olunur.

1.7. Fondun illik fəaliyyətinin nəticələri Himayəçilik Şurasının iclasında müzakirə olunur.

**2. Fondun əsas məqsədi və vəzifələri**

2.1. Naxçıvan Muxtar Respublikasının əhalisini maarifləndirmək, dövlət siyasətinin, ictimai-siyasi və sosial-iqtisadi proseslərin mahiyyətini ictimaiyyətə çatdırmaq Fondun əsas məqsədidir.

2.2. Fondun əsas vəzifələri aşağıdakılardır:

2.2.1. Naxçıvan Muxtar Respublikası əhalisinin elmi-texniki, siyasi-ictimai, sosial-iqtisadi, ekoloji və humanitar biliklərini artırmaq məqsədi ilə təşkilati və təbliğat xarakterli tədbirlər həyata keçirmək;

2.2.2. Naxçıvan Muxtar Respublikası əhalisinə qloballaşma şəraitində cərəyan edən proseslər haqqında dolğun biliklər çatdırmaq;

2.2.3. azərbaycançılıq məfkurəsinin, o cümlədən Naxçıvanşünaslığın mahiyyətini, milli-mənəvi və dini dəyərləri təbliğ etmək;

2.2.4. şəxsin fasiləsiz təhsilini, daim yenilənən, müasir standartlara uyğun biliklərə və dünyagörüşünə yiyələnməsini, şəxsiyyət kimi inkişafını təmin etmək məqsədi ilə lazımi tədbirlər həyata keçirmək;

2.2.5. gənclərin biliklərinin, bacarıqlarının, peşəkarlıq səviyyələrinin və dünyagörüşlərinin inkişafına dəstək göstərmək;

Ardı 2-ci səhifədə

2.2.6. sağlam həyat tərzini, ətraf mühitin mühafizəsini təbliğ etmək;

2.2.7. Azərbaycan, o cümlədən Naxçıvan tarixinin və mədəniyyətinin təbliğinə yönəlmiş tədbirlər təşkil etmək;

2.2.8. Naxçıvan Muxtar Respublikasının dinamik inkişafı ilə əlaqədar təhlillər aparmaq, beynəlxalq, regional və ölkədaxili ictimai-siyasi və sosial-iqtisadi prosesləri öyrənmək və ictimaiyyətə çatdırmaq;

2.2.9. dövlət siyasətinin mahiyyəti ilə bağlı dövlət maraqlarına uyğun materiallar hazırlayıb dövri mətbuatda yaymaq, elmi konfranslar, seminarlar, dəyirmi masalar və disputlar təşkil etmək;

2.2.10. Fondun məqsədlərini gerçəkləşdirmək üçün materiallar çap etdirmək, kitablar, broşürlər, analitik materiallar hazırlamaq və onların yayılmasını təmin etmək;

2.2.11. bu Nizamnaməyə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

**3. Fondun hüquqları**

3.0. Fondun öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

3.0.1. vəzifələrini yerinə yetirmək məqsədi ilə müxtəlif qurumlar (bilik evləri, dərnəklər və sair) yaratmaq;

3.0.2. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.0.3. dövlət və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslərlə əməkdaşlıq etmək;

3.0.4. təhlillər, ümumiləşdirmələr və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq, rəy və təkliflər vermək;

3.0.5. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.0.6. xeyriyyə marafonları və mədəni-kütləvi tədbirlər keçirmək;

3.0.7. məqsədləri və fəaliyyəti barədə məlumatı sərbəst yaymaq, mətbu nəşrlər təsis etmək;

3.0.8. bu Nizamnaməyə uyğun olaraq digər hüquqları həyata keçirmək.

**4. Fondun idarə edilməsi**

4.1. Fondun fəaliyyətinin istiqamətləndirilməsini, onun fəaliyyətinə ümumi nəzarəti Fondun Himayəçilik Şurası (bundan sonra – Şura) həyata keçirir.

4.2. Şura doqquz üzvdən ibarət tərkibdə formalaşdırılır.

4.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə görə Şuranın sədridir.

4.4. Şura sədrinin müavini və üzvlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təyin olunur.

4.5. Şuranın sədri istisna olmaqla, Şuranın sədr müavininin və Şura üzvlərinin səlahiyyət müddəti 4 ildir. Eyni şəxs ardıcıl olaraq iki dəfədən artıq Şura üzvü ola bilməz.

4.6. İkili vətəndaşlığı olan, Azərbaycan Respublikasının vətəndaşı olmayan, başqa dövlətlər qarşısında öhdəliyi olan, ağır cinayətlərə görə məhkum edilmiş, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilmiş şəxslər Şuranın üzvü ola bilməzlər.

4.7. Şuranın üzvləri Şuranın işində ictimai əsaslarla fəaliyyət göstərir.

4.8. Şuranın iclasları Şura sədrinin təşəbbüsü ilə keçirilir. Şuranın növbədənkənar iclasları Şura sədrinin və ya Şura üzvlərinin yarıdan çoxunun təşəbbüsü ilə keçirilə bilər. Şuranın iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Şuranın qərarları açıq səsvermə yolu ilə iclasda iştirak edən Şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda Şura sədrinin səsi həlledici sayılır.

4.9. Şura:

4.9.1. Fondun cari fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir, onun fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş təkliflər hazırlayır;

4.9.2. Fondun fəaliyyətinin ümumi istiqamətlərini müəyyən edir;

4.9.3. Fondun fəaliyyətinin qanunvericiliyə uyğunluğuna nəzarəti həyata keçirir;

4.9.4. Fondun fəaliyyət istiqamətlərinə uyğun layihə və tədbirlərin həyata keçirilməsi üçün dəstəyin yönəldilməsi daha məqsədəuyğun hesab edilən sahələr barədə təkliflərini aidiyyəti üzrə təqdim edir;

4.9.5. məqsədlərinə uyğun digər vəzifələri həyata keçirir.

4.10. Şura üzvləri aşağıdakı hüquqlara malikdirlər:

4.10.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək;

4.10.2. Şuranın iclasının gündəliyi və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olmaq;

4.10.3. Şurada qəbul ediləcək qərarlara dair fikir söyləmək;

4.10.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılması barədə təkliflər vermək;

4.10.5. Şuranın qərarları, iclaslarının protokolları və digər sənədləri ilə tanış olmaq.

4.11. Şura üzvləri:

4.11.1. Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı;

4.11.2. Şuranın iclaslarını üzrsüz səbəbdən buraxmamalı;

4.11.3. Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli;

4.11.4. Şurada baxılan məsələlər haqqında qərar qəbul edilənədək məsələnin mahiyyətinə dair ictimaiyyət qarşısında fikir söyləməməlidirlər.

4.12. Şuranın sədri:

4.12.1.Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslarına sədrlik edir;

4.12.2. Fondun fəaliyyətinə rəhbərlik edir və Fondu təmsil edir;

4.12.3. bu Nizamnaməyə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

4.13. Şura sədrinin müavini:

4.13.1. Şuranın işini təşkil edir;

4.13.2. Fondun illik fəaliyyət planını hazırlayır;

4.13.3. Fondun kargüzarlıq işlərini təşkil edir;

4.13.4. öz səlahiyyətləri daxilində Şuranın qəbul etdiyi qərarların icrası ilə əlaqədar müvafiq tədbirlər görür;

4.13.5. Şuranın iclaslarında qəbul olunmuş qərarlar haqqında ictimaiyyəti məlumatlandırır;

4.13.6. Fondun illik fəaliyyətini əks etdirən materialların mətbuatda dərc edilməsini təmin edir.

4.14. Şura üzvünün səlahiyyətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

4.14.1. öz arzusu ilə Şura üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

4.14.2. Şura üzvünün bu Nizamnamədə nəzərdə tutulmuş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

4.14.3. səhhətinə görə vəzifələrini altı aydan artıq müddətdə yerinə yetirə bilmədikdə;

4.14.4. ardıcıl olaraq 3 dəfə üzrsüz səbəbdən Şuranın iclaslarında iştirak etmədikdə;

4.14.5. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

4.14.6. barəsində cinayət işinə bəraətverici əsaslar olmadan xitam verildikdə, habelə məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmə qərarı olduqda;

4.14.7. Şura üzvünün adına ləkə gətirən hərəkətlərə yol verdikdə.

4.15. Səlahiyyətlərinə vaxtından əvvəl xitam verilmiş Şura üzvünün yerinə yeni üzv onun səlahiyyət müddətinin qalmış hissəsinə bu Nizamnamədə nəzərdə tutulmuş qaydada təyin edilir.

**5. Fondun yenidən təşkili və ləğvi**

Fondun yenidən təşkili və ləğvi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 4 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının

TƏRKİBİ

**Sədrin müavini**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri

**Üzvlər:**

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri

Naxçıvan Dövlət Universitetinin rektoru

Naxçıvan Müəllimlər İnstitutunun rektoru

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri

Heydər Əliyev adına tam orta məktəbin direktoru

## Təhsil yarmarkası keçirilib

***Avqustun 4-də Naxçıvan şəhərində təhsil yarmarkası keçirilib. Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev açıb.***





Qeyd olunub ki, ölkə başçısının 5 sentyabr 2009-cu il tarixli “Təhsil haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Fərmanının icrasını təmin etmək və gənc kadrların iş şəraitini yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 avqust 2014-cü il tarixli Qərarı ilə “Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumtəhsil müəssisələrində işə başlamış mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 aprel tarixli Qərarında dəyişiklik edilib. Yeni qərara əsasən, pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş, dövlət sifarişi ilə iş yerlərində əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti ümumi təhsil müəssisələrində davam etdirən 35 yaşadək gənc mütəxəssislərə bu müddət ərzində kommunal xidmətlərini ödəmək üçün 60 manat, rayon mərkəzindən 20 kilometrdən artıq məsafədə yerləşən ümumi təhsil müəssisələrində əmək fəaliyyətinə başlayan hər bir nəfər üçün 3 il müddətində əməkhaqqına hər ay 160 manat məbləğində əlavələr ödəniləcəkdir. Üçillik müddət bitdikdən sonra həmin və ya digər kənd məktəbində pedaqoji fəaliyyətini davam etdirən gənc mütəxəssislərə daha 2 il müddətində kompensasiya əməkhaqqına əlavə olunacaqdır.

Vurğulanıb ki, təhsilə göstərilən dövlət qayğısı Naxçıvan Muxtar Respublikasında da özünü yüksək səviyyədə göstərməkdədir. Belə ki, son 18 ildə muxtar respublikada 200-dən çox təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Hazırda bu iş uğurla davam etdirilməkdədir.

Təhsil müəssisələrinin maddi-texniki bazasının yüksək səviyyədə qurulduğunu qeyd edən təhsil naziri bildirib ki, muxtar respublikanın ümumtəhsil müəssisələrinə 3409 dəst kompüter verilib, bu təhsil ocaqlarında 600-ə yaxın ən müasir elektron lövhə quraşdırılıb. Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə artıq ənənəvi olaraq keçirilən təhsil yarmarkaları muxtar respublikamızda təhsilin keyfiyyət və kəmiyyətcə inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə köməklik edib. Gənc kadrların yetişdirilməsində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yaxından iştirak edir. 2014-cü ildə də rayon Təhsil şöbələri ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq mərkəzlərinin birgə fəaliyyəti nəticəsində muxtar respublika ərazisində yerləşən məktəblərin vakant yerləri ixtisaslar üzrə müəyyən edilib. Muxtar respublikanın təhsil sahələri üzrə boş iş yerlərinin uçotu aparılıb və müəyyən edilib ki, hazırda muxtar respublikada 26 Azərbaycan dili və ədəbiyyat, 59 xarici dil, 35 riyaziyyat, 23 informatika, 26 tarix, 43 coğrafiya, 31 fizika, 30 kimya, 24 biologiya, 41 ibtidai sinif müəlliminə ehtiyac var və ümid edirik ki, keçirilən bu təhsil yarmarkası məktəblərin pedaqoji kadrlarla təminatı işində mühüm əhəmiyyət kəsb edəcək.

İşaxtaran vətəndaş Ceyhun Abdullayev təhsil yarmarkasının keçirilməsinin böyük əhəmiyyət daşıdığını deyib, bu işdə əməyi olanlara minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov muxtar respublikada məşğulluq məsələlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərdən bəhs edib.

Tədbirə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev yekun vurub.

Qeyd edək ki, Naxçıvan şəhərində təşkil edilən təhsil yarmarkasında 108 nəfərə işə göndəriş verilib.

✍ S.HƏSƏNOV

## Sərhəd-buraxılış məntəqələrində elektron məlumat köşkləri yerləşdirilir

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətindən aldığımız məlumata görə, miqrasiya sahəsində maarifləndirmə tədbirlərinin müxtəlif istiqamətlərdə həyata keçirilməsinin təmin edilməsi məqsədilə Culfa, Şahtaxtı və Sədərək sərhəd-buraxılış məntəqələrindəki miqrasiya bölmələrində elektron məlumat köşkləri yerləşdirilib.***

Dövlət Miqrasiya Xidmətinin əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə zəruri məlumatların birbaşa çatdırılması məqsədilə sərhəd-buraxılış məntəqələrində quraşdırdığı, ekranı sensorla idarə olunan elektron məlumat köşkləri böyük əhəmiyyət kəsb edir. Məlumat üçün bildirək ki, köşklərdə 3 dildə (Azərbaycan, rus və ingilis dillərində) yerləşdirilmiş bütün məlumatlar səslə də ifadə olunur. Eyni zamanda elektron məlumat köşklərində Dövlət Miqrasiya Xidmətinin göstərdiyi xidmət növləri üzrə qanunvericilikdə nəzərdə tutulmuş dövlət rüsumları da öz əksini tapıb.

Elektron köşklərdə əcnəbi və vətəndaşlığı olmayan şəxsləri maarifləndirmək məqsədilə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində nəzərdə tutulmuş aşağıdakı məlumatlar yerləşdirilib:

- əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı;
- əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması;
- əcnəbi və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi;
- əcnəbi və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazənin verilməsi.

Məlumatda o da bildirilir ki, hazırda Naxçıvan Beynəlxalq Hava Limanında da elektron məlumat köşkünün yerləşdirilməsi və istifadəyə verilməsi üçün hazırlıq işləri aparılır.

Xəbərlər şöbəsi

# Qayğı və uğurlar artır, yeni nailiyyətlər qazanılır



### Quruculuq tədbirləri davam etdirilir

**Muxtar respublikada əldə olunan nailiyyətlərdə Kəngərli rayonunun da öz payı var. Bu bölgədə həyatın bütün sahələrində qazanılmış uğurlar rayona göstərilən hərtərəfli dövlət qayğısının ifadəsi kimi dəyərləndirilir. Cari ilin ötən dövrü ərzində rayonda belə uğurlar artan dinamika ilə müşahidə edilib. Qazanılan hər bir nailiyyət, əldə olunan hər bir uğur, ilk növbədə, insanların həyat şəraitinin yaxşılaşmasında özünü göstərir. Bu isə hər bir Kəngərli sakininin qurub-yaratmaq əzminə yeni qüvvə verir. Digər bölgələrimiz kimi, tikinti- quruculuq tədbirləri bu rayonun da ayrılmaz tərkib hissəsinə çevrilib.**

Hazırda rayon mərkəzi Qıvraq qəsəbəsində, kənd yaşayış məntəqələrində geniş həcmdə tikinti-quruculuq işlərinin həyata keçirilməsi davam etdirilir. Rayon mərkəzində Uşaq-Gənclər Şahmat Məktəbi, Təhsil Şöbəsi, Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Kəngərli Rayon Şöbəsi, Elektrik Şəbəkəsi üçün yeni binalar inşa olunur. Qarabağlar kəndində 468 şagird yerlik 1 nömrəli tam orta məktəbin binasında yenidənqurma işləri aparılır, xidmət mərkəzi inşa olunur. Qıvraq qəsəbəsində yeni ticarət mərkəzi tikilir. Əhalinin içməli su ilə təminatı istiqamətində tədbirlər davam etdirilir. Quruculuq tədbirləri digər sahələri də əhatə edir.

### İqtisadiyyat gücləndirilir

Bölgədə kənd təsərrüfatının inkişafı üstün istiqamət verilən sahələrdən biridir. Rayon üzrə 2754 hektar sahədə yazlıq əkin aparılıb. Bunun 1047 hektarı yazlıq arpa olub. Ümumilikdə, payızlıq əkinlə birlikdə 4277 hektar taxıl sahəsinin məhsulu tədarük olunub. Torpaq mülkiyyətçiləri 214 hektar sahədə kartof, 293 hektar sahədə tərəvəz, 179 hektar sahədə bostan, 113 hektar sahədə günəbaxan, 98 hektar sahədə qarğıdalı, 321 hektar sahədə paxlalı bitkilərin əkinini həyata keçiriblər. Sahələrə aqrotexniki qaydalar əsasında qulluq göstərildiyindən torpaq mülkiyyətçiləri bol məhsul yetişdirməyə nail olublar. Bütün əkinçilik sahələrində məhsul yığımı davam etdirilir. Əkin sahələrinin suvarılmasında mövcud olan problemlər aradan qaldırılıb, 3 min metrə yaxın yeni suvarma xətti çəkilib. Bəhs olunan dövrdə Xıncab və Böyükdüz kəndlərinin əhatə etdiyi ərazilərdə mövcud olan əkinəyararlı torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsinə başlanılıb. Hazırda Uzunoba Su Anbarından qidalanan təbii axınlı boru xəttinin, nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi həyata keçirilməkdədir. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi diqqətdə saxlanılaraq meşəsalma və meşəbərpa işləri davam etdirilir. Belə ki, 5,5 hektar sahədə meşə salınıb, 6 hektar sahədə meşəbərpa işləri həyata keçirilib. Ümumilikdə, 4600 ədəd müxtəlif meyvə tingləri, 300 ədəd həmişəyaşıl ağac əkilib.

### Xidmət sahələrinin fəaliyyəti razılıq doğurur

Rayonda əhalinin elektrik enerjisinə, mavi yanacağa olan tələbatının ödənilməsi, rabitə xidmətinin yüksəldilməsi, məşğulluğun təmin olunması diqqət mərkəzində saxlanılır. Elektrik təchizatını yaxşılaşdırmaq üçün hava xətləri əsaslı təmir edilib, 10 ədəd müxtəlif gücdə olan transformator işlək vəziyyətə gətirilib, 1 yeni transformator yarımstansiyası quraşdırılıb, istismar müddəti başa çatmış elektrik dirəkləri yeniləri ilə əvəz olunub. Rayon mərkəzində bəhs olunan dövr ərzində 160 abonent montaj tutumu olan yeni KAREL ATS-i quraşdırılıb, inzibati binaların böyük bir hissəsində xətt təsərrüfatı yenidən qurulub, rabitə idarəsi tərəfindən 85 ədəd yeni telefon xətti çəkilib.

İlin ilk 7 ayı ərzində rayon Qaz İstismarı İdarəsi tərəfindən 5319 əhali abonentinə, 57 dövlət və 61 özəl təşkilata mavi yanacağın verilməsi təmin olunub. Bəhs olunan dövrdə 42 abonent sayğacla təmin edilib, 25 yeni mənzilə təbii qaz xətti çəkilib.

Rayonda əhalinin məşğulluğunun təmin edilməsi, sosial müdafiəsinin gücləndirilməsi, maddi rifah halının yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Bu dövr ərzində 115 nəfər işaxtaran vətəndaş qeydiyyata alınıb, onlardan 103 nəfəri işlə təmin olunub. Bundan başqa, rayonda keçirilən əmək yarmarkalarında 44 nəfər daimi işlə təmin olunub. Eyni zamanda peşə ixtisası məktəblərini bitirmiş 11 nəfər işə cəlb edilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi tərəfindən, ümumilikdə, 3066 nəfər təqaüdçüyə xidmət göstərilib. Pensiya və müavinətlərin ödənilməsinə 2 milyon 984 min 900 manat vəsait xərclənib. Bu dövrdə 749 min 852 manat məcburi dövlət sosial sığorta vəsaiti toplanılıb, 317 aztəminatlı ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilib.

### Təhsil və mədəniyyət işçiləri göstərilən qayğıya əməli işlə cavab verməyə səy göstərirlər

Rayonda 12 ümumtəhsil məktəbi, 4 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Məktəblərdə təhsil alan 3062 şagirdin təlim-tərbiyəsi ilə 417 müəllim məşğul olur. Ümumtəhsil ocaqlarında 239 kompüter və 34 elektron lövhədən istifadə edilir. Pedaqoji kollektivlər vətənpərvər vətəndaşlar tərbiyə etmək üçün yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər. Tarixi, əlamətdar, bayram günlərində müxtəlif tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu da şagirdlərin intellektual səviyyəsinin yüksəldilməsinə öz müsbət təsirini göstərir.

Ötən dərs ilində orta məktəbləri 334 nəfər məzun olub. Onlardan 245-i ali məktəblərə qəbul olunmaq üçün sənəd təqdim edib, 102-si tələbə adına layiq görülüb. Abituriyentlərdən 14 nəfəri 500-dən yuxarı bal toplayıb. Rayonun pedaqoji kollektivləri qazanılan uğurları son hədd hesab etmirlər. Gələcəkdə daha yüksək uğurlara nail olmaq əzmi ilə çalışırlar.

Rayonun mədəniyyət işçiləri də göstərilən qayğıya əməli işlə cavab vermək əzmi ilə bütün imkanlardan istifadə etməyə çalışırlar. Bölgə sakinlərinin asudə vaxtlarının səmərəli təşkil olunması üçün müxtəlif tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Rayon mədəniyyət evinin "Kəngər" instrumental ansamblı, uşaqlardan və böyüklərdən ibarət yallı kollektivləri, qızlardan ibarət "Gülüm hey" folklor qrupu rayonun mədəni həyatında fəal iştirak edirlər. Mədəniyyət işçiləri fotostendlərin, sərgilərin, şeir və rəsm müsabiqələrinin təşkilinə diqqəti artıraraq "Muxtariyyət ili"nə öz töhfələrini verməkdədirlər.

Ötən dövr ərzində bir neçə oxucu konfransı və kitab müzakirəsi keçirilib. Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Naxçıvan şəhərində keçirilən müsabiqənin yekun konsertində Qıvraq qəsəbə və Çalxanqala kənd uşaq musiqi məktəblərinin kollektivləri fəxri fərmanla təltif olunublar.

### Qışa hazırlıq diqqət mərkəzindədir

Bununla bağlı rayon İcra Hakimiyyətində müşavirə keçirilib. Müşavirədə rayonun aidiyyəti təşkilatları qarşısında müəyyən vəzifələr qoyulub. Həmin vəzifələrin böyük bir qismi artıq öz həllini tapıb. Rayonun energetika, qaz, yol təsərrüfatları, rabitəçiləri qarşıdan gələn payız-qış mövsümünü uğurla başa vurmaq üçün bir sıra tədbirlər həyata keçiriblər. Qaz, elektrik xətlərində əsaslı və cari təmir işləri aparılıb, istismar müddəti başa çatan avadanlıqlar yeniləri ilə əvəz olunub. Texnikaların işlək vəziyyətə gətirilməsinə diqqət artırılıb. Təbii qazla qızdırılacaq binalara baxış keçirilib. Təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin qış mövsümündə heç bir problemlə üzləşməmələri üçün məqsədyönlü tədbirlər görülüb. Maye qaz və neft məhsullarından istifadə edilən müəssisələrdə lazımi yanacaq ehtiyatının yaradılması üçün həyata keçirilən tədbirlər davam etdirilir.

*Kəngərli rayonu 2014-cü ilin ötən dövründə diqqətəlayiq uğurlar qazanıb. Bu uğurların qazanılmasında, təbii ki, başlıca amil hərtərəfli dövlət qayğısının göstərilməsidir. Belə qayğı olan yerdə yüksək uğurlara nail olmaq heç də çətin deyil. Bölgə sakinləri "Muxtariyyət ili"ni müvəffəqiyyətlə başa vurmaq üçün yaradılan imkanlardan səmərəli istifadə edir, muxtar respublikanın iqtisadi qüdrətinin artmasına töhfələrini verirlər.*

Muxtar MƏMMƏDOV

---

***Müasir dövrdə davamlı inkişafın təmin edilməsində əhalinin sağlamlığı, yüksək həyat şəraitinin təmin edilməsi, düzgün məşğulluq siyasətinin həyata keçirilməsi nəticəsində yoxsulluq və işsizlik səviyyəsinin minimuma endirilməsi vacib məsələlərdən hesab olunur. Bazar iqtisadiyyatında məşğulluğun tənzimlənməsi səmərəli iqtisadi fəaliyyətin nizamlanmasına mühüm təsir etməklə yanaşı, həm də daim artan ehtiyacların ödənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Ona görə də müasir iqtisadi şəraitdə dövlətimizin makroiqtisadi siyasətinin əsas hədəflərindən biri əmək qabiliyyətli əhalinin məşğulluğunu yüksək səviyyədə təmin etməkdən ibarətdir.***

# Məşğulluğun artırılması dövlət siyasətinin əsas hədəflərindəndir

Məşğulluq siyasəti ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan iqtisadi inkişaf strategiyasının ən mühüm tərkib hissələrindən biri olmuşdur. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu bu istiqamətdə dövlət siyasətini müəyyən etmişdir. Daha sonra Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)", 2007-ci il 15 may tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" və 2011-ci il 15 noyabr tarixli Sərəncamla təsdiq olunmuş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2011-2015-ci illər)" ölkədə məşğulluq səviyyəsinin yüksəldilməsinə real imkanlar yaratmaqdadır. Azərbaycan Respublikası regionlarının 2004-2008-ci və 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının, 2008-ci il 15 sentyabr tarixli Sərəncamla təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın icrası nəticəsində əhalinin sosial rifahının gücləndirilməsi, yoxsulluğun azaldılması, məşğulluğun artırılması, ümumilikdə, ölkədə insan potensialının qorunması və inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş və bu tədbirlər hazırda da davam etdirilir.

Sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayan Naxçıvan Muxtar Respublikasında da formalaşdırılmış möhkəm iqtisadi əsaslar fonunda əhalinin maddi rifah halının davamlı olaraq yüksəlməsi, insanların etibarlı sosial müdafiəsinin təşkili mühüm əhəmiyyət daşıyır. Regionda sosial-iqtisadi tərəqqi prosesində qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi və dərinləşməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, bu istiqamətdə mümkün zəruri tədbirlərin uğurla reallaşmasına da yeni imkanlar açır. Sosial-iqtisadi problemlərin həlli, yoxsulluğun azaldılması, işgüzar fəallığın yüksəldilməsi, habelə məşğulluğun artırılması istiqamətində muxtar respublikada son illər ərzində uğurlu addımlar atılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilən və muxtar respublikanın sosial-iqtisadi inkişaf istiqamətlərini özündə əks etdirən dövlət proqramlarından irəli gələn vəzifələrin həyata keçirilməsi Naxçıvanın davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, məşğulluğun təmin edilməsi üçün geniş imkanlar açmışdır. Son on ildə muxtar respublikada Ümumi Daxili Məhsulun həcmi 13,9 dəfə, hər bir nəfərə düşən Ümumi Daxili Məhsul 12 dəfə artmışdır. İqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlər əhalinin rifah səviyyəsinin davamlı yüksəlişinə səbəb olmuşdur. "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əhatə etdiyi ötən beş ildə Ümumi Daxili Məhsulun real həcmi 2,9 dəfə artaraq 2 milyard 338 milyon 928 min manata çatmış, hər bir nəfərə düşən minimal həcmi 2,7 dəfə artaraq 5 min 423 manat təşkil etmişdir. Məşğulluq imkanlarının genişlənməsi, habelə bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının 1,6 dəfə artaraq 376,6 manata çatması əhalinin gəlirlərinin yüksəlməsi ilə nəticələnmiş və 2013-cü ildə 1 milyard 737 milyon manatdan çox olmuşdur. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində son beş ildə muxtar respublikada 22 min 296 yeni, o cümlədən 19 min 215 daimi iş yeri açılmışdır. Ümumilikdə isə son on ildə əhalinin gəlirləri 10,2 dəfə, orta aylıq əməkhaqqı 9,8 dəfə artmış, 58 mindən çox yeni iş yeri yaradılmışdır. Bununla bərabər, iş yerlərinin açılması, yeni müəssisələrin işə salınması nəticəsində istehsal olunan məhsulların çeşidi artmış, ixracın həcmində müsbət dəyişikliklər baş vermişdir.

Məşğulluq problemlərinin həll edilməsində əsas məsələlərdən biri də muxtar respublika əhalisinin əsas hissəsinin kəndlərdə yaşaması və bu əhalinin məşğulluq potensialından düzgün istifadə edilməsini təmin etməkdən ibarətdir. Bu baxımdan 30 yanvar 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Ali Məclisin Sədri İqtisadiyyat və Sənaye Nazirliyinin qarşısına konkret vəzifələr qoyaraq demişdir: ***"Nazirlik sənaye parklarının yaradılması istiqamətində işləri sürətləndirməli, sənaye müəssisələri yaradılarkən muxtar respublikanın bütün rayonlarının mövcud imkanları nəzərə alınmalıdır. Kəndlərdə məskunlaşmaya və məşğulluq səviyyəsinin yüksəldilməsinə xidmət edən xalq tətbiqi sənətinin müxtəlif sahələrinin, yaxud yerli təsərrüfatçılıq ənənələrinə əsaslanan kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmalıdır".*** Yeri düşmüşkən qeyd edək ki, təkcə 2013-cü ildə muxtar respublikada bank və kredit təşkilatları tərəfindən sahibkarlara 49 milyon 765 min manatdan çox kreditlərin verilməsi nəticəsində 2260 yeni iş yeri açılmışdır ki, bunun da 2092-si daimi iş yerləridir.

Müasir dövrdə əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi istiqamətində atılmış uğurlu addımlardan biridir. Proqramın qəbul edildiyi vaxtdan indiyədək muxtar respublikada təşkil olunan əmək yarmarkalarına 479 müəssisədən 4645 boş iş yeri çıxarılmışdır ki, bu iş yerlərinə də 789 nəfərə göndəriş verilmişdir. Ali Məclis Sədrinin 1 sentyabr 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" isə bu sahədə məqsədyönlü dövlət siyasətini ortaya qoymaqla bərabər, həm də yaxın gələcək üçün daha böyük nailiyyətlərin əldə olunmasına şərait yaradacaq.

Səbuhi HƏSƏNOV

# Yük və sərnişindaşıma xidməti ilə bağlı seminar-müşavirə keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində yük və sərnişindaşıma xidməti ilə məşğul olan hüquqi və fiziki şəxslərin iştirakı ilə seminar-müşavirə keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Nəqliyyatda əlaqələndirmə və lisenziyalaşdırma şöbəsinin müdiri Ramin Qəhrəmanov çıxış edib.*



Bildirilib ki, muxtar respublikamızda digər sahələrlə yanaşı, avtomobil nəqliyyatı sahəsində də əsaslı islahatlar aparılıb və müsbət nəticələr əldə edilib. Muxtar respublika rəhbərinin bu sahəyə diqqət və qayğısının nəticəsidir ki, ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınır, rayon mərkəzlərində yeni avtovağzallar tikilib istifadəyə verilir. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmalarının müasir tələblərə uyğun yerinə yetirilməsi zərurətini yaradır. Qeyd olunub ki, muxtar respublika ərazisində sərnişin və yük daşınmasına görə razılıq (lisenziya) qanunvericilikdə nəzərdə tutulmuş qaydada Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi tərəfindən 5 il müddətinə verilir.

Şöbə müdirinin sözlərinə görə, avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən sürücülərin intizam qaydalarına necə əməl etmələrini yoxlamaq məqsədilə Naxçıvan şəhərində bir sıra reydlər keçirilib, qanun pozuntusuna yol verən sürücülər saxlanılaraq cəzalandırılıblar. Vergi borcunu ödəməyən, qanunsuz taksi fəaliyyəti ilə məşğul olan sürücülərə qeyri-qanuni sərnişindaşıma ilə məşğul olmamaq haqqında xəbərdarlıqlar edilib, tabe olmayan sürücülər Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə keçirilən reydlərdə saxlanılaraq cəzalandırılıblar.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi tərəfindən cari ilin ötən dövründə 129 ədədi yük, 91 ədədi sərnişindaşıma fəaliyyəti olmaqla, cəmi 220 ədəd xüsusi razılıq (lisenziya), sərnişin və yük daşıyan 9 min 126 ədəd avtonəqliyyat vasitələrinə fərqlənmə nişanı, onlardan 103 ədədinə isə xüsusi fərqlənmə nişanı verilib.

"Yol-nəqliyyat kompleksinin yenidən qurulması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, yük və sərnişindaşıma xidmətlərinin günün tələbləri səviyyəsində qurulması üçün hər cür şərait yaradılıb", – deyən Ramin Qəhrəmanov onu da qeyd edib ki, 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar qarşıya qoyulan başlıca vəzifə avtomobillərin vaxtında texniki müayinədən keçirilməklə saz vəziyyətdə istismar olunmasından ibarətdir. Bu mühüm əhəmiyyətli sahə də diqqət mərkəzində saxlanılıb, cari ilin ötən dövründə 4078 ədəd avtonəqliyyat vasitəsi texniki müayinədən keçirilib ki, bunun 1368 ədədi taksi, 2710 ədədi isə digər avtonəqliyyat vasitələri olub. Bu istiqamətdə işlər davam etdirilir.

Sonra nazirliyin Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsinin müdiri Elxan Novruzov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasını həyata keçirən sürücülərin intizam qaydalarına uyğun fəaliyyət göstərmələri mütəmadi olaraq nəzarətdə saxlanılır. Bu qaydalara əsasən, sərnişindaşıma hüququ müvafiq ixtisas tələblərinə və sağlamlıq vəziyyəti müvafiq normalara cavab verən fiziki şəxslərə verilir. Nəqliyyat vasitəsini idarəetmə hüququ müvafiq normativ-hüquqi aktlarla müəyyən olunmuş qaydada və formada verilmiş sənədlərlə təsdiq edilir. İctimai nəqliyyatda sərnişin daşınması ilə məşğul olan hər bir sürücünün idarə etdiyi avtomaşının fəaliyyət göstərməsi üçün xüsusi razılığın (lisenziyanın) verilməsini təsdiq edən sənəd olmalı, sürücülük rekvizitləri qanunvericiliyin tələblərinə cavab verməlidir. Qeyd olunub ki, cari ilin ötən dövründə sərnişin, eləcə də yük daşınması ilə məşğul olan fiziki və hüquqi şəxslərin fəaliyyətinə nəzarət məqsədilə müxtəlif reydlər aparılıb, nəticədə, qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən 369 avtonəqliyyat vasitəsi sahibi aşkar olunub, onlardan 220 nəfər lisenziyaya cəlb edilib, intizama tabe olmayan 149 nəfər haqqında cəza tədbiri görülmək üçün müvafiq orqanlara məlumatlar göndərilib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

✍ **Kərəm HƏSƏNOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin avqust ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1227 | 73,6 | 74,0 | 100,5 |
| 2. | Culfa rayonu | 1327 | 79,6 | 80,0 | 100,5 |
| 3. | Şahbuz rayonu | 349 | 20,9 | 21,0 | 100,5 |
| 4. | Kəngərli rayonu | 632 | 37,9 | 38,0 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 4425 | 265,5 | 265,5 | 100,0 |
| 6. | Şərur rayonu | 2125 | 127,5 | 127,5 | 100,0 |
| 7. | Babək rayonu | 2250 | 135,0 | 135,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 300 | 18,0 | 18,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 33087 | 1985,3 | 1985,1 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **45722** | **2743,3** | **2744,1** | **100,0** |

**Qeyd:** Avqust ayında texniki itki nəzərə alınmaqla daxil olan 45 milyon 722 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 743 min 300 manat olmuş, cəmi 2 milyon 744 min 100 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin avqust ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 178714 | 17871 | 19823 | 110,9 |
| 2. | Kəngərli rayonu | 232979 | 23298 | 23663 | 101,6 |
| 3. | Sədərək rayonu | 78320 | 7832 | 7882 | 100,6 |
| 4. | Culfa rayonu | 342865 | 34287 | 34447 | 100,5 |
| 5. | Ordubad rayonu | 313450 | 31345 | 31446 | 100,3 |
| 6. | Şərur rayonu | 569900 | 56990 | 57092 | 100,2 |
| 7. | Naxçıvan şəhəri | 920750 | 92075 | 92085 | 100,0 |
| 8. | Babək rayonu | 405080 | 40508 | 40513 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3954955 | 395426 | 381928 | 96,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **6997013** | **699632** | **688879** | **98,5** |

## *Düzəliş*

"Şərq qapısı" qəzetinin 4 sentyabr 2014-cü il tarixli, 168-ci sayında dərc olunan rəsmi xronikanın sonuncu cümləsi belə oxunmalıdır: "Azərbaycan Prezidenti İlham Əliyev "Heydər Əliyev" ordenini Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana təqdim etdi".

## Həmyerlimiz Beynəlxalq Ekologiya, İnsan və Həyat Fəaliyyətinin Təhlükəsizliyi Akademiyasının üzvü seçilib

*Naxçıvan Dövlət Universitetinin Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi kafedrasının müdiri, aqrar elmlər doktoru, professor Əlövsət Quliyev ABŞ-da dərc olunan "Geoloji ehtiyatlar və mühəndislik" (Journal Geological Resource and Engineering (ISSN 2328-2193 David Publishing Company) beynəlxalq jurnalının redaksiya heyətinə üzv seçilmişdir.*

Həmyerlimiz həmçinin 30 iyun 2014-cü ildə Beynəlxalq Ekologiya, İnsan və Həyat Fəaliyyətinin Təhlükəsizliyi Akademiyasının (International Academy of Ecology, Man and Life Protection Sciences) ekologiya bölməsi üzrə həqiqi üzvü seçilmişdir.

Xatırladaq ki, professor Əlövsət Quliyev 2011-ci ildən YUNESKO-nun Qədim Hidravlik Sistemlər (kəhrizlər) üzrə dövlətlərarası idarə heyətinin, 2013-cü ilin oktyabr ayından isə Dünya Su Assosiasiyasının (International Water Association (IWA) üzvüdür.

Alimə yaradıcılığında yeni-yeni uğurlar arzu edirik.

## Musiqi kollektivləri əsgərlər qarşısında çıxış ediblər

Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsinin nəzdində yaradılmış "Arpaçay" instrumental, Şərur Xalq Yallı, "Şərur qönçələri" Uşaq Yallı ansamblları rayonun mədəni həyatında fəal iştirak edir, şərurluların asudə vaxtlarının səmərəli təşkilinə səy göstərirlər. Adıçəkilən kollektivlər tez-tez rayon ərazisində yerləşən hərbi hissələrdə də olur, hərbçilər qarşısında maraqlı konsert proqramları ilə çıxış edirlər.

Rayon Mədəniyyət və Turizm Şöbəsindən aldığımız məlumata görə, bu günlərdə adıçəkilən kollektivlər "N" hərbi hissəsində olub. Ansamblların repertuarında dövlətçiliyimizə, müstəqilliyimizə, vətənpərvərliyə həsr olunmuş mahnılar səsləndirilib, ansamblların ifasında əsgərlərimizdə döyüş ruhunu yüksəldən rəqslər və yallılar təqdim edilib. Konsert proqramı əsgər və zabitlər tərəfindən alqışlarla qarşılanıb.

Hərbi hissə rəhbərliyi bu tədbirin xalq-ordu birliyinin bariz ifadəsi olduğunu diqqətə çatdırıb, əsgərlərin asudə vaxtlarının səmərəli təşkilinə töhfə verdikləri üçün musiqi kollektivlərinə şəxsi heyət adından minnətdarlığını bildirib.

**Xəbərlər şöbəsi**

## Basketbol üzrə yoldaşlıq görüşü

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının təşkilatçılığı ilə daha bir yoldaşlıq görüşü keçirilib. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında keçirilən yoldaşlıq görüşündə veteranlardan ibarət basketbol komandası ilə gənclərdən ibarət basketbol komandası üz-üzə gəlib. Gərgin mübarizə şəraitində keçən görüşdə veteranlar rəqiblərinə 69:67 hesabı ilə qalib gələrək hələ qocalmadıqlarını nümayiş etdiriblər.

Sonda Basketbol Federasiyası tərəfindən idmançılara həvəsləndirici mükafatlar təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

### *Allah rəhmət eləsin*

Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Oruc Əliyev və mərkəzin kollektivi iş yoldaşları Sürəyya Əliyevaya, qayınanası

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 755**